**UOT 94(479.24)**

# ETNİK MÜNAQİŞƏ NƏZƏRİYYƏLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİNƏ DAİR

**A.S.MƏMMƏDOV**
***AMEA***
***adish_mamedov@mail.ru***

*Məqalədə etnik münaqişənin təbiəti və təsnifatına dair müxtəlif akademik yanaşmalar tədqiq olunur. Müqayisəli təhlil metodu əsasında etnik münaqişənin təbiəti izah olunmaqla yanaşı, həm də onların tənqidinə yer verilmişdir. Məqalədə həmçinin etnik zəmində münaqişələri "identikliklərin qarşıdurması" kimi xarakterizə edən ayrı-ayrı nəzəriyyələr təhlil olunmuş, etnik münaqişədə bir-birinə qarşı müxtəlif dünyagörüşünə, adət-ənənəyə, tarixi keçmişə, qan yaddaşına, psixologiya və özünüdərkə malik iki etnik qrup dayandığı göstərilmişdir.*

**Açar sözlər:** etnik, münaqişə, müqayisə, təhlil, nəzəriyyə

Etnik münaqişələr, bir qayda olaraq, maddi və mənəvi resursların bölüşdürülməsinə nəzarət uğrunda gedən geosiyasi mübarizədir [1, 24]. Belə münaqişələr müxtəlif etnosların ayrı-ayrı nümayəndələri, sosial qrupları, habelə, iki və ya daha çox etnosun qarşıdurması kimi özünü büruzə verir. Əksər hallarda etnik münaqişə özünü vətəndaş müharibəsi səviyyəsində, bir və ya iki müstəqil dövlətin müharibəsi kimi əks etdirir [11, 4]. V.A.Tişkov etnik münaqişənin təbiətini şərh edərək yazır ki, müxtəlif düşüncəli etnik qruplar etnik münaqişələrin başlıca izahıdır [24, 8-16]. Məsələn, bu tip münaqişələrin “soyuq müharibənin” bitməsindən sonra MDB məkanında vüsət alması polietnik sosialist federasiyaların süqutu (keçmiş SSRİ bir növ polietnik cəmiyyət idi-A.M.) və həmin ərazidə meydana gələn gənc müstəqil dövlətlərdə yeni milli azlıq probleminin üzə çıxması ilə bağlıdır [13, 95; 14, 5-19]. Müasir siyasi sistemlərin polietnik olması etnik münaqişə riskini artıran başlıca amildir.

Müasir elm etnik münaqişənin təbiəti və təsnifatına dair müxtəlif nəzəriyyələr irəli sürərək etnik münaqişələrin akademik izahını verməyə cəhd edir. Belə nəzəriyyələr içərisində daha çox diqqəti cəlb edən “primordialist” yanaşmadır [23; 15, 4]. Primordialist yanaşma “etnikliyə” daha çox nəzər salır, bu qrup mütəxəssislər isə etnik müharibələri dərisinin rənginə, dini mənsubiyyətinə, tarixinə, qan qrupuna və s. əlamətlərinə görə həmrəy olmuş bir qrup adamların milli birləşməsi (milli özünü dərk etməsi) uğrunda mübarizəsi kimi

qeyd edir[3, 62; 25, 95-110; 26, 18-19]. Etnik münaqişənin primordialist tərəfdarları iddia edirlər ki, əzəli bioloji əlamətlər və xüsusiyyətlər, xüsusilə ərazilər mövcud olduğuna görə etnik qruplar və millətlər mövcuddur. Etnik qrupun üzvləri arasında qohumluq əlaqəsi var. Donald L.Horovits iddia edir ki, bu qohumluq etnik qrupların öz növbəsində ailələrinə oxşarlığını düşünməsinə imkan verir [11, 57]. Etnik dil qohumluq dilidir. Qrup üzvləri adətən bir-birini qardaş və qrupa bağlı olanları əmioğlu çağırırlar. Qrup üzləri arasında harmoniya qardaşlıq əlaqələri kimidir. Etnik qrupların davranışları ailə qaydaları əsasında müəyyənləşdirilir. Qabon və Kamerunda qəbilə və qrup üzvləri yenidən birlik yaratmaq üçün hərəkata başlayanda onlar özlərinin əvvəlki nizamsızlığını ailədaxili dava-dalaş kimi izah edirdilər [11, 57]. Müəllifə görə, etnik qohumluq əlaqələri iki mənsubiyyətin birgə xarakterindən, yaxud da ailənin etnikliyə analoji təsirindən yarana bilməz. İkisi arasında daha çox birbaşa əlaqələr var. Mənsubiyyət, hər hansı bir aidiyyət ailə münasibətlərinin qohumluğundan yaranır, burada etnik əlaqələr ailə əlaqələrində piramidavaridir. Bəzi kiçik etnik qruplar qəbilələrin qohumluq əlaqələri aglomerasiyasına nisbətən heç nədir, adət-ənənə, dini, dili olan daha böyük yarımqruplar və böyük qruplar mühüm əhəmiyyət daşıyır [11, 57].

Bəhs olunan nəzəriyyənin tədqiqatçıları iki yanaşma üzərində dayanır: sosial-tarixi və biososial. Biososial nəzəriyyəyə daha çox maraq göstərən L.N.Qumilyov yazır ki, milli-azadlıq hərəkatının zərbələri altında geri çəkilən müstəmləkəçilik yox olmaqdadır, lakin etnoslararası təmas qalır və genişlənir. Deməli, qarşılıqlı anlaşma yaradılması problemi həm dünya siyasətinin qlobal miqyasında, həm də mikroskopik-qanışirin görünən, lakin bizə bənzəməyən adamlarla şəxsi görüşlər miqyasında getdikcə daha da zəruri olur. Belə olduqda, əməli əhəmiyyətinə baxmayaraq, nəzəri mahiyyət daşıyan yeni bir sual ortaya çıxır. Hansı səbəbdən bir-birimizə bənzəməyən biz insanlar bir-birimizə uyğunlaşmalı, özgə adət-ənənələrini öyrənməli, bizə təbii görünən, etnosdaxili təmaslar üçün kifayət edən və qonşularımızla ilişkilər üçün qənaətbəxş sayılan yeni yollar aramalıyıq?... Həqiqətən müxtəlif xalqlar müxtəlif tarixi dövrlərə və fərqli tarixi talelərə malik olurlar. Həmin talelər isə ayrı-ayrı adamların xarakterlərini formalaşdıran şəxsi tərcümeyi-hallar kimi silinməz iz qoyurlar. Əlbəttə, insanın onu qidalandıran təbiətlə gündəlik təması vasitəsilə coğrafi mühit də etnoslara təsir edir. Lakin bu hələ hamısı deyil. Əcdadlardan miras qalan ənənələr də öz rolunu oynayır, qonşularla (etnik əhatə ilə) olan ənənəvi düşmənçilik, yaxud dostluq özünün mədəni təsirini göstərir, dinin öz əhəmiyyəti var. Bütün bunlardan əlavə, hər hansı təbii hadisə kimi, etnoslara aid olan inkişaf qanunları mövcuddur [9, 14].

Qərb tədqiqatçıları içərisində biososial yanaşmanın görkəmli nümayəndəsi kimi Pyerom van der Berqe daha çox diqqəti cəlb edir. Müəllifə görə, etniklik hər şeydən öncə əcdadlara meyllidir. Məhz belə bağlılıq etniklik fenomenində həlledici rol oynayır [17, 220; 5, 20-39].

Primordialist nəzəriyyədə sosial-tarixi və mədəni-psixoloji yanaşmalar hələ də üstünlük təşkil edir, bu nəzəriyyənin tərəfdarları etnikliyi çoxəsrlik tarixi təcrübə nəticəsində yaranan davamlı sosial fenomen, təcrübəli qrup kimi izah edirlər. Y.Bromley qeyd edir ki, etnos tarixən müəyyən ərazidə formalaşan, oxşar mədəniyyəti və psixologiyası olan və digər qruplardan fərqlənən sosial-mədəni birlikdir [6, 9; 7, 53-55]. Eyni zamanda bu nəzəriyyəyə etnik kimliyi doğulduğu gündən bəri əldə etdiyi rigidliyi (qapalılığı) fərdin əsas xüsusiyyəti kimi görür. Onlarda hər hansı bir sinif və ya siyasi amillər yoxdur. Etnik mənsubiyyətinə görə rusiyalı Rusiya, Kanada və digər ölkələrdə dəyişməz olaraq qalır. Bu tezisdən primordialistlər belə nəticə çıxarır ki, etnosun özündə demək olar ki, qaçılmaz münaqişə potensialı var. Bu isə o deməkdir ki, etnik münaqişə heç bir xüsusi izahata ehtiyacı olmayan etnik fərqlərin izləri kimi, etnik fərqlər nəticəsində yaranır [5, 20-39].

V.Tişkov qeyd edir ki, bu yanaşma xüsusilə etno-mədəni fərqləri olan, hətta "rəsmi dövlət qeydiyyatına alınan və etnik əsasda formalaşan cəmiyyətlərə xasdır [26, 19]. Ümumiyyətlə, bir qrup politoloqlar etnik münaqişənin təbiətinə dair nəinki primordialist nəzəriyyəni, hətta digər nəzəriyyələri də kəskin tənqid atəşinə tutaraq qeyd edirlər ki, belə yanaşmalar doğru deyil, bu, bir mifdir. Etnik münaqişələr etniklikdən daha çox özündə siyasi, iqtisadi, institutsional yanaşmaları ehtiva edir. Bu siyasətçilər iddia edirlər ki, etnik münaqişə anlayışı yalnışdır, çünki bu, siyasi qərarlar nəticəsində məlum qrupların müharibə zamanı bir-birinə qarşı vuruşmasına gətirib çıxarır. Müxalif qruplar qeyd olunan faktorlara görə dost və düşməni asan müəyyənləşdirmək üçün etnikliyi əvəzləyə bilər [19, 70]. Göründüyü kimi, etnik münaqişənin təbiətinə dair nəzərəriyyələr birmənalı qarşılanmır. Bu isə təsadüfi deyil. Etnik müharibələr, əsasən, soyuq müharibənin başa çatması ilə qəddar və irimiqyaslı hal almağa başlamışdır. Belə halı keçmiş SSRİ məkanında daha aydın müşahidə edirik. Məlumdur ki, keçmiş SSRİ-nin varisi Rusiya yeni minilliyə iqtisadi, sosial və siyasi problemləri tam həll olunmamış şəkildə daxil oldu. Özünü çökmüş SSRİ-nin varisi hesab edən Rusiyanın daxilində və xaricində çoxdan tüstülənən münaqişə ocaqları, öz həllini gözləyən milli məsələlər-Çeçenistan, Cənubi Osetiya, Kalininqrad anklavı, Kuril adaları, MDB ölkələrində (xüsusilə Ukrayna, Moldova, Qazaxıstan, Azərbaycanın Dağlıq Qarabağ problemi) hələ də qalmaqdadır.

Primordialist nəzəriyyə müəlliflərinə görə, burda güclü və xeyli sayda zəif amillər var. Güclü amillər hər zaman sosial həmrəyliyi diqqət mərkəzində saxlayırlar. Şübhəsiz ki, dərinin, saçların rəngi kimi digər fiziki əlamətlər sosial həmrəyliyin elementar formasını müəyyənləşdirən, xarici görünüşünü əks etdirən çoxlu qruplar mövcuddur. Belə həmrəylik ümumi anlayışda xalqın gücünə əsaslanır, "biz kimik", bu zaman ümumi düşmən, ümumi dil, ümumi tarix anlayışları ortaya çıxır. Zəif amillər isə aşağıdakıları nəzərdə tutur: etnik qruplar niyə dəyişkənliyə uğrayır, yeniləri meydana çıxır, hakimiyyət uğrunda qrupdaxili mübarizələr bir qədər arxa plana keçir. Bütün bu faktlar isə onu

göstərir ki, etnikliyin çox mürəkkəb təbiəti var və o xarici əlamətlərinə görə izah oluna bilməz [15, 6].

Epifenomenalistik yanaşma da sosial fenomen kimi etnikliyi bioloji əsas kimi qəbul edir. Bu yanaşmanın müəllifləri də fiziki və sosial əlamətlərdəki fərqlərə xüsusi əhəmiyyət vermirlər. Yalnız o, bioloji və mədəni cəmiyyətin sinfi və institutsional münasibətlərlə əlaqəsi olmayan siyasətə müstəqil təsir imkanlarını əks etdirir. Epifenomenalizm iddia edir ki, hakimiyyət nə bioloji, nə də sosial-mədəni əlamətlərə görə yox, institutsional parametrləri və sinfi quruluşu olan siyasi əsasları ilə təmsil olunur. Buna görə də, etnikliyin özünün xarakterik xüsusiyyətləri var[15, 6]. Lakin etnik kimlik sabit, dəyişməz xarakter daşımır. D.Leyk və D.Rotşildin fikrincə, bu ad altında köhnə identikliyin transformasiyası və yaxud yeni identikliyin formalaşması başa düşülə bilməz [20, 80]. Məlumatlardan da göründüyü kimi, primordialist yanaşmada etnik identiklik qabardılmaqla etnik münaqişənin təbiəti izah olunur. Bəzən isə qeyd olunur ki, etnos sosial hadisə deyil və bu səbəbdən də bir neçə formasiyada mövcud ola bilər. İctimai inkişafın təsiri ekzogendir (xaricidir), o, həm siyasi, həm də mədəni inkişafda təcəssüm olunması şərti ilə etnosların formalaşmasına və ya parçalanmasına təsir edə bilər.

Etnik münaqişələr haqqında digər nəzəriyyələr sırasında diqqəti cəlb edən instrumentalist yanaşmadır. London İqtisad Məktəbinin görkəmli professoru Antoni Smit qeyd edir ki, bu nəzəriyyə 1960-1970-ci illərdə Amerika Birləşmiş Ştatlarında etnik müzakirələrdə gündəmə gəldi [28, 48-49]. Bu nəzəriyyənin əsas diqqət mərkəzi etnik kimliyin rasional aspektlərinə yönəlib [21, 3-24; 2, 62-63]. Bu yanaşma müəyyən bir vəziyyətdə insanların reaksiyasına bir növ etnikliyin düşüncəsi kimi yanaşır. Bu halda etnik mənsubiyyətin tarixi resurslardan, başqa sözlə, öz məqsədlərinə nail olmaq üçün siyasi imkanlardan özünəməxsus şəkildə faydalanmaq imkanı ortaya çıxır. Bundan əlavə, etniklik gizli və ya tamamilə yoxluq səviyyəsinə enmir. Primordialzimdə olduğu kimi, instrumentalizm də etnik kimlik baxımından özünü sabit deyil, hərəkətlilik və mobillik kimi xüsusiyyətləri ilə şərtlənir. Məsələn, tarixən Qafqaz regionunda müxtəlif tarixi dövrlərdə formalaşmış “Qafqaz mozaikasını” xatırladan müxtəlif etnik, dini, etno-konfessional, etno-sosial qruplar mövcuddur. İnstrumentalist yanaşma belə rəqib qrupların qarşılıqlı münaqişəsinin meydana çıxmasını etnik münaqişənin təbiətinin bir forması hesab edirlər. Onlar belə hesab edir ki, identik uyğunsuzluqlar yox, reallıqda müxtəlif resurslar uğrunda qruplararası düşmənçilik etnik münaqişələrin təbiəti kimi izah olunmalıdır [5, 20-39]. Devid Leyk və Donald Rotşildin birgə araşdırmlarına görə, hər şeydən öncə etnik münaqişələrin səbəbi gələcək kollektiv təhlükədir. Qruplar özlərinin fiziki təhlükəsizliyinə zərbələri hiss etdikdə təhlükəli və çətin strateji dilemma qarşısında qalır, bu zaman zorakılıq üçün böyük bir potensial əhəmiyyət kəsb edir. Qrupdaxili etnik və siyasi fəallar bu qorxunu gücləndirirlər. Siyasi yaddaş, miflər, eləcə də digər qavrayışlar bu qorxulara təsir edir. Və beləliklə də qrupdan-qrupa daha da böyüyür [15, 36]. Bəzi tədqiqatçılara görə, instru-

mentalizmin belə yanaşmasında müəyyən qüsurlar var [26, 19]. Birincisi, bu ideya etnik münasibətlərin hərəkət xarakteri haqqındadır. Əslində, etnik fərdlərin seçimi tamamilə azad hesab oluna bilməz, etnik kimlik nisbi xarakter daşımır. İkincisi, bu nəzəriyyə irrasional etnik amilləri nəzərə almır. Bir vasitə kimi onun səmərəliliyi yalnız maraqlardan deyil, həm də etnik identikliyin emosional qavrayışlarından asılıdır [26, 19].

XX əsrin 90-cı illərində ən ümumi paradiqma kimi konstruktivizm diqqəti cəlb edir. Bu, əvvəlki iki yanaşmanın sanki birləşdirilməsi cəhdidir. O, müxtəlif qrupların əsasında dayanan etnikliyi inkar etmir, lakin onun sonrakı inkişafına cəmiyyətin sosial strukturu prizmasından yanaşır [10, 25-26; 12, 3-30]. Ümumiyyətlə, bu nəzəriyyənin formalaşdırılmasını şagirdlər tərəfindən mənimsənilmiş bilik mexanizmi kimi izah edən Jan Piagetə aid edirlər. O təklif edirdi ki, yaşayış və assimilyasiya prosesləri vasitəsilə fərdlər öz təcrübələrindən yeni biliklər qazanırlar. Fərd assimilyasiyaya uğrayanda, onlar yeni qazanılmış təcrübəni heç bir dəyişiklik etmədən artıq mövcud olan çərçivəyə daxil edirlər. Bu, fərdi təcrübələrin dünyanın digər nümayəndələrinə uyğunlaşdırılması zamanı baş verə bilər, lakin yalnışlıq ucbatından bu, baş verməyə də bilər, məsələn, onlar hadisələrə diqqət etməyə bilər, başqaları tərəfindən yalnış qəbul oluna bilər, yaxud da qərara alır ki, bu hadisə bir xətadır və dünya haqqında lazımsız bir məlumatdır. Əksinə, fərdi təcrübələr daxili qərarlara zidd olanda, onlar təcrübə qavrayışlarını daxili qərarlara uğunlaşdırılmasına dəyişə bilər. Bu nəzəriyyəyə görə, yaşayış (sığınacaq) bir kəsin xarici aləminin yeni proseslərə uyğunlaşdırılmasının bir əqli ifadəsi prosesidir. Nəzərə alsaq ki, biz hərəkət edirik, dünya hərəkətdədir, bizim gözləntilərimiz özünü doğrultmaya da bilər, bu zaman sığınacaq (məskunlaşma) uğursuz təlim mexanizmi kimi də başa düşülə bilər, lakin məskunlaşarkən yeni təcrübələr, dünyaya yeni modellərin uyğunlaşdırılması zamanı biz uğursuzluq, yaxud başqalarının uğursuzluğu təcrübəsini öyrənirik [18].

Qeyd etmək lazımdır ki, konstruktivizm pedaqogika deyil. Öz təcrübəsindən istifadə edərək məruzəni, yaxud təyyarə modeli hazırlamaq üçün təlimatları başa düşməsindən asılı olmayaraq, əslində, konstruktivizm necə baş verdiyini öyrənməyi təsvir edən nəzəriyyədir. Hər iki halda konstruktivizm nəzəriyyəsi iddia edir ki, şagirdlər (öyrənənlər) öz təcrübələrindən yeni bilik yaradırlar. Bununla belə, konstruktivizm fəal təlim və təlimi təşviq edən pedaqoji yanaşma ilə çox təmasdadır. Digər tərəfdən, konstruktivizm Benedikt Andersonun icmanın təsviri ilə bağlı konsepsiyasında əksini tapan etnik qrupların sosial xarakter daşımasının vacibliyi qeyd olunur. 1930-cu ildən Belçika müstəmləkəçilərinin Ruandada Tutsi/ Hutu qəbilələrinin fərqlərini mal-qara sahibləri, fiziki əlamətlər və kilsə qeydləri əsasında kodifikasiya edəndən bəri bu nəzəriyyənin tərəfdarları Ruandanı nümunə kimi göstərirlər. Kimlik kartları bu əsasda hazırlandı və bu sənədlər 1994-cü il qırğınlarında (genosidində) əsas rol oynadı [18; 27].

Konstruktivizm nümayəndələri vurğulayırlar ki, etnik əlamətlərdən hər biri-dili, mədəniyyəti, adət-ənənəsi müxtəlif dərəcədə yalnız etniklik üçün yox, ictimai-sosial münasibətlərin digər növləri üçün də xarakterik ola bilər. Bu yanaşmanın əsasları B.Anderson, V.Domingez, D.Rotşild və M.Esmananın tədqiqatlarında öz əksini tapmışdır [10, 25].

Göründüyü kimi, bu yanaşma etnik kimliyi nisbi sayır, yaxud Tişkovun qeyd etdiyi kimi, "dreyf" adlandırır. Bu nəzəriyyənin bir sıra zəif cəhətlərini tənqidçilər tərəfindən göstərilən "etnik münaqişənin təbiəti və mənbələrində yalnız bütün növ münaqişələr deyil, sosial qrupların əsasında dayanan (dini, milli, regional, klan) mənbələrin" izahından da tapmaq mümkündür. Başqa sözlə, konstruktiv paradiqma əsasında maddi maraqlar dayanan münaqişələri (sinfi münaqişələri) deyil, onların fərdi xüsusiyyətlər əsasında dayandığını qeyd edir [22, 73].

Son zamanlar bəhs olunan yanaşmaların qarşılıqlı olmasını xarakterizə edən inteqrativ nəzəriyyə diqqəti cəlb edir. A.S.Tatunça görə, etnik şərhləri bioloji, idealist, sosial-sinfi, psixoloji olaraq birmənalı vermək lazımdır [22, 73]. Göründüyü kimi, burada şəxsiyyət amilinin mürəkkəb və çoxşaxəli bir fenomen olduğu ortaya çıxır. Buna görə də, münaqişələrin təhlili ilə bağlı etnikliyin təbiətinin izahına dair müxtəlif fikir və mülahizələri kompleks şəkildə izah etmək daha doğrudur.

Məhz bu baxımdan inteqrativ nəzəriyyə ən obyektiv və ağlabatan hesab olunur. Fikrimizcə, bura bir məsələni də əlavə etmək lazımdır ki, etnik münaqişənin mənşəyi ilə bağlı konstruktivist və instrumentalist baxışlar nisbətən yaxın mövqe nümayiş etdirirlər: birincisi, hesab olunur ki, etnik özü-özünə münaqişə yaratmır; ikincisi, güman olunur ki, o, müəyyən məqsədlərin həyata keçirilməsi və elita tərəfindən kütləvi səfərbərlik yaradılması üçün istifadə (bəzən də tez-tez) oluna bilər.

Bütün bunlar onu göstərir ki, müasir münaqişələrdə milli-mədəni və dini fərqlərin rolunu inkar etmək olmaz. Lakin müasir qloballaşma prosesindəki iqtisadi və sosial amillər elə həddə çatmışdır ki, beynəlxalq aləmdə insanlar və dövlətlər arasındakı münasibətlərin əsas katalizatoru rolunda din, dil, mədəniyyət deyil, məhz iqtisadi maraqlar çıxış edir. Digər tərəfdən, qloballaşma prosesinin təzyiqi altında milli dövlətlərin zəifləməsinə cavab olaraq sənayecə inkişaf etmiş dövlətlər də daxil olmaqla dünyada "lokal millətçilik" və "etnik dirçəliş" yaşanır [4, 462].

**ƏDƏBİYYAT**


1. Анцупов А.Я., Шипилов А.И. Конфликтология: Учебник для вузов. 2-е изд., пераб. и доп. М.: ЮНИТИ-ДАНА, 2004, 412 с.
2. Аклаев А.Р. Этнополитическая конфликтология. Анализ и менеджмент. М.: Дело, 2005, 472 с.
3. Альтерматт У. Этнонационализм в Европе. М.: Рос. гуманит. ун-т, 2000, 367 с.
4. Babaoğlu H. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı: 2010, 587 s.

5. Буянова Н.В. Специфика и причины этнополитического конфликта // Ученые Записки Казанского Государственного Университета, 2007, с.20-39
6. Бромлей Ю.В. Очерки теории этноса. М.: Наука, 1983, 390 с.
7. Белков П.Л. О методе построения теории этноса // Этносы и этнические процессы. Памяти Р.Ф. Итса. Сб. ст. / Отв. ред. В.А. Попов. – М.: Наука, 1993, 344 с.
8. Введение в политологию: Словарь-справочник // Сост. Г.Л. Купряшин, Т.П. Лебедева, Г.И. Марченко; под ред. В.П. Пугачева. М.: Аспект Пресс, 1996, 98 с.
9. Гумилев Л.Н. Этногенез и биосфера Земли. – СПб.: Питер, 1999, 230 с.
10. Дробижева Л.М. Социальные проблемы межнациональных отношений в постсоветской России. М.: Праксис, 2003, 320 с.
11. Donald Horowitz L. Ethnic Groups in Conflict. Berkeley, CA: University of California Press 1985. 700 p.
12. Заринов И.Ю. Социум – этнос – этничность – нация – национализм // Этнографическое обозрение, 2002, № 1, С. 3–30.
13. Зеленков М.Ю. Межнациональные конфликты: проблемы и пути их решения (правовой аспект). Воронеж: ВГУ, 2006, 262 с.
14. Климин Д.Ю. Этнополитические конфликты: теоретико-методологические подходы // Ученые Записки Казанского Государственного Университета, 2007, с. 5-19
15. Кочесоков Р.Х. Этнические конфликты. Нальчик, 2007, 90 с.
16. Малышева Д. Конфликты на юге СНГ и на Ближнем и Среднем Востоке, (сравнительный анализ) Мировая экономика и международные отношения, 1995. №10, с. 36-37
17. Малахов В.С. Национализм как политическая идеология. М.: КДУ, 2005, 320 с.
18. Mamdani M. When Victims Become Killers: Colonialism, Nativism, and the Genocide in Rwanda. Princeton, NJ: Princeton University Press // Theories of ethnic conflict // www.en.wikipedia.org
19. Политическая конфликтология. Под ред. Ланцова С. СПб, Питер, 2008, 319 с.
20. Паин Э.А. Между империей и нацией: модернистский проект и его традиционалистская альтернатива в национальной политике России. – М.: Новое изд-во, 2004, 248 с.
21. Рыбаков С.Е. Этничность и этнос // Этнографическое обозрение. – 2003. – № 3, с. 3-24
22. Татунц С.А. Этносоциология: проблемы, перспективы преподавания // Вестн. Моск. ун-та. Сер.18. Соц. И пол. – 2000. , № 1, с. 67–77
23. Тураев В.А. Этнополитология. М.: Логос, 2004, 388 с.
24. Тишков В. А. О природе этнического конфликта // Свободная мысль, 1993. №4. С. 8-16
25. Тишков В.А. Реквием по этносу. Исследования по социально-культурной антропологии. М.: Наука, 2003, 544 с.
26. Тишков В.А. Идентичность и культурные границы. М.: Наука, 1997, 230 с.
27. Toft, Monica Duffy. The Geography of Ethnic Violence: Identity, Interests, and the Indivisibility of Territory. Princeton, NJ: Princeton University Press. Theories of ethnic conflict // www.en.wikipedia.org
28. Энтони Смит. Национализм и модернизм: Критический обзор современных теорий наций и национализма. Пер. с англ. А.В. Смирнова, Ю.В. Филиппова, Э.С. Загашвили, И. Окуневой. М.: Праксис (Серия «Новая наука политики»), 2004, 464 с.

## СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ТЕОРИИ ЭТНИЧЕСКИХ КОНФЛИКТОВ

**А.С.МАМЕДОВ**

**РЕЗЮМЕ**

В статье исследуется разные подходы сущности и классификации этнических конфликтов. На основе методов сравнительного анализа на ряду объяснений сущности этнических конфликтов, также было отведено место и их критике. Наряду с этим, основа этнических конфликтов анализируется и характеризуется как отдельные теории идентификация противостояния. Также в работе показано существование двух этических групп, их разные мировозрения против друг-друга, традиции, историческое прошлое, память крови, психология и самосознание.

**Ключевые слова:** этнический, конфликт, сравнение, анализ, теория

## ON THE COMPARATIVE ANALYSIS OF ETHNIC CONFLICT THEORIES

**A.S.MAMMADOV**

**SUMMARY**

The article considers different approaches to the nature and classification of ethnic conflicts. The nature of ethnic conflict is explaned on the basis of comparative analysis. Thus, different theories characterizing ethnic conflicts as confrontation of identities are analyzed, the existence of two ethnic groups, their different views against each other, traditions, and history, psychologies and consciousness are marked.

**Key words**: ethnic, conflict, comparison, analysis, theory